DÜNYA XƏBƏRLƏRİ

# Rusiya və Ukraynadan qarşılıqlı zərbələr - Ölənlər var

1 saat öncə




Rusiya Odessa vilayətində Moldova ilə sərhəd-keçid məntəqəsini vurub

Rusiyanın Novorossiysk şəhərinə Ukraynanın dron hücumu nəticəsində biri uşaq olmaqla, 4 nəfər ölüb, 29 nəfər yaralanıb. Bu barədə Krasnodar diyarının qubernatoru **Veniamin Kondratyev** bu gün – sentyabrın 9-da Telegram-da yazıb.

Rusiya dronları isə Ukraynanın Odessa vilayətində Ukrayna-Moldova sərhəd-keçid məntəqəsinə zərbə endirib. Hücum nəticəsində iki nəfər ölüb.

Odessa vilayətinin qubernatoru **Oleq Kiper** Telegram-da bildirib ki, "Starokozaçye" sərhəd-keçid məntəqəsi yaxınlığında iki mülki şəxs həlak olub, üç nəfər yaralanıb.

Rəsmilərin sözlərinə görə, hücum böyük yanğına səbəb olub, sərnişinlərin və nəqliyyat vasitələrinin sərhəddən keçidi müvəqqəti dayandırılıb.

ДСНС України



‼️ росіяни завдали удару по одному із пунктів пропуску на Одещині! Попередньо, загинули 2 людини, ще 3 – постраждали!

Пошкоджені споруди, знищені автобуси, вантажні та легкові автомобілі. Спалахнула масштабна пожежа.

Рятувальники евакуювали з місця ворожого удару 16 людей та автобусом доправили їх до безпечного місця для тимчасового розміщення.

Сайт • Fb • X • IG • YT • TT

😢 56 😱 3 ❤️ 1

5.91K Sep 9 at 05:14

Ukrayna rəsmiləri ötən gecə paytaxt Kiyevin hücuma məruz qaldığını bildirir.

Kiyev meri **Vitali Kliçko** bu gün səhər tezdən Rusiya dronunun 16-mərtəbəli binaya zərbə endirdiyini bildirib. Hələlik itki barədə məlumat yoxdur.

ABŞ təmsilçilərinin səfəri müddətində qısa fasilədən sonra Moskva Kiyevə fasiləsiz hava hücumlarını bərpa edib. Rəsmilər ötən gün hücumlar nəticəsində paytaxtda beş nəfərin öldüyünü bildiriblər.

---

AzadlıqRadiosu © 2026 Inc. | Bütün hüquqlar qorunur